**Bioloji aktiv qida məhsullarının qeydiyyatı üçün tələb olunan sənədlər**

1. Müraciət ərizəsi
2. Dərman vasitələri ilə eyni tərkibli və eyni dozalı olmaması barədə son 1 (bir) il ərzində verilən Ekspertiza rəyinin surəti;
3. Hüquqi şəxsin Dövlət reyestrindən çıxarışı və VÖEN sənədi, qanunu təmsilçinin şəxsiyyət vəsiqəsi və etibarnaməsi surəti
4. Fiziki şəxsin VÖEN və şəxsiyyət vəsiqəsi surəti
5. İdxal edilən məhsula münasibətdə mənşə sertifikatı
6. Uyğunluq sertifikatı
7. Təqdim olunan nümunələrə dair Azərbaycan Respublikasının ərazisinə idxal edilməsini təsdiq edən invoys
8. HACCP və ya GMP sertifikatları
9. Səlahiyyətli dövlət qurumu tərəfindən verilmiş təhlükəsizliyini təsdiq edən sənəd
10. Məhsulun istehsal edildiyi ölkədə dövriyyədə olmasını təsdiq edən rəsmi sənəd
11. Məhsulun tərkibi üzrə tədqiq (sınaq) protokolu
12. Tədqiqin (sınağın) aparılması metodikası
13. Məhsulun yararlılıq müddətini təsdiq edən sınaqlara dair məlumat
14. Məhsul 2-14 yaşında uşaq və hamilə qadınların istifadəsi üçün tövsiyə edildikdə müvafiq tədqiqatların protokolları
15. Azərbaycan Respublikasının ərazisində satılmaq üçün nəzərdə tutulmus BAQM-nın etiketinin və qablaşdırmasının maketləri
16. BAQM-nin istehlakçı üçün nəzərdə tutulmuş orijinal və Azərbaycan dilində tərtib edilmiş istifadə təlimatları
17. İstehsalçının BAQM-nin tərkibində genetik modifikasiya olunmuş məhsulların və nanomaterialların, hormonların, pestisidlərin, həmçinin narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları, güclü təsir edən və zəhərli maddələrin və Beynəlxalq Anti-Dopinq Agentliyinin qüvvədə olan siyahısı ilə müəyyən olunan dopinq maddələrinin olmaması haqqında təsdiqedici sənədi
18. Təqdim edilmiş BAQM-nın istehsalı barədə müvafiq sənədlərin (standartlar, texniki şərtlər, texnoloji təlimatlar, spesifikasiyalar, resepturalar) eləcə də istehsalçının BAQM-nın istehsalına icazəsi barədə sənədləri